

■ Akif Azalp

*Alim Qasımova ithaf olunur.*

* * *

Musiqi aləminin ən uca pərvazı muğamdır,
Uca pərvazı ilə zirvədə şahbazı muğamdır.

Mehriban taleyinin xəlqimə bəxşişləri içrə
Çoxdu dürdanələri, amma sərəfrazı muğamdır.

Qəlbinin arzu-kamı ülvi məhəbbətlə coşandan
Şanlı üşşaq elinin sevgili həmrazı muğamdır.

Alimin ilhamının kükrəyən ünlərdə mücəssəm,
Şeyda bülbül nəvasından kam alan yazı muğamdır.

Rəngü-təsnifləri parlatdığı an qövsi-qüzeh tək,
Odlu tarla kamanın işvəsi həm nazı muğamdır.

Ölçülərsə mizani-qeyridə daş-qaş ilə əlhan,
Min özəl cilvə ilə nur saçan almazı muğamdır.

Çünki, Akif, onun ən insani xisləti odur ki,
Ayrılıq dəmlərinin daimi dəmsazı muğamdır.

* * *

Dinləsən gər, varlığın qayəsi "Rast"dan nur saçır,
Göylərin insanlığa ayəsi "Rast"dan nur saçır.

Özlədikcə sevgili Həvva ilə xoş günlərin,
Adəmin cənnət dilər naləsi "Rast"dan nur saçır.

Ləhni-dürdanələrin ondan gəlir ibtidası,
Cümlə dəstgahlar kökü, mayəsi "Rast"dan nur saçır.

Doğru yoldan dönməyən mərdanələr iqbalına
Haqq ilə ədalətin sayəsi "Rast"dan nur saçır.

Gər dərindən diqqət etsən, mahrular validəsi,
Cürbəcür ahənglərin dayəsi "Rast"dan nur saçır.

Dar qəfəslərdən çıxıb, pərvazda sərhəd bilməyən
Sevdalar haqda elin şayəsi "Rast"dan nur saçır.

An gələndə, Akifa, gözlərdə par-par parlayıb,
Gah sevincin, gah qəmin jaləsi "Rast"dan nur saçır.

* * *

"Şur" ilə coşdu könül dəryası "Şur"idələrin,
Qərq olub cilvələrə dünyası "Şur"idələrin.

Ülvi hiss-duyğuların ümmanına təşnələri
Sehrinə çulğadı hər dalğası "Şur"idələrin.

Sığdırar bir saata ab-havasın dörd fəsilin,
Bəmlə zillər arası qovğası "Şur"idələrin.

Çöl-biyabanda gülün qeyb edənə gül yetirər,
Gülşənə çevriliben səhrası "Şur"idələrin.

"Bayatı-türk"dən ötüb ta "Səmayi-şəms"ə qədər
Qəlblərə saldı atəş sevdası "Şur"idələrin.

Və nəhayət, yar əlindən can atar yarə tərəf
Yetişən qırmızı güz alması "Şur"idələrin.

Akifa, sən də deyirsən ki, sənət vurğunuyam,
Bəxtəvər başına "Şur" şeydası "Şur"idələrin.

* * *

Bağrı sevda arayan bir yanar əfsanədi "Segah",
Sevda bir şamdısa gər, başına pərvanədi "Segah".

Tənhalıq qüssəsi sarmış bəmi zildən, zili bəmdən,
Bir yetim qəlbin ahından bizə nişanədi "Segah".

Baş qoyub xallarına sehrinə uyduqca dərindən,
Cüt vurub, cüt durulan çeşmeyi-dürdanədi "Segah".

Saqiya, çaşma fəqət başdakı göz yaşını görcək,
Sonda ümmid şərabından dolu peymanədi "Segah".

Eşq üçün qismətinə min cür əzab yazsa da gərdun,
Öz yolundan geri dönməz dəli-divanədi "Segah".

Heyrətə gəlmiş aşiqlər daim ənbər-ətirindən,
Gül-çiçək içrə qızılgül kimi bir danədi "Segah".

Öyrən, Akif, mətanət dərsini sən ondan al, alsan,
Bu qədər dərdi ilə, gör, necə mərdanədi, "Segah".

* * *

Dəstgahlara bir sahədə sərdardı "Çahargah",
Yar əhlinə yar, əğyara əğyardı "Çahargah".

"Bərdaşt "ilə "Mayə"də yanar arzusu xalqın,
Qanda köpürər qeyrət ilə ardı "Çahargah".

Yağcaq ana yurd qayğıları "Bəstənigar"dan,
İstehkam üçün süngülü "Hisar"dı "Çahargah".

Onda ki, "Müxalif"lə dolub kükrədi "Qərrə",
Bil ki, yağının səflərini yardı "Çahargah".

"Mənsur"la "Firuz"dan ucalan qıylara bax bir,
Quzğunları tar-mar eləyən sardı "Çahargah".

"Hüzzal"da zəfər bəzmini coşdurcaq ürəkdən,
"Ayaq" da yenə Sülh ilə rəftardı "Çahargah".

Əlqissə, Akif, özgə yerindən yuva bulmuş,
Artıqlıq edən başlara bir dardı "Çahargah".

* * *

Keçmişlərin sanki bütün qəm-kədəri "Şüştər"də cəm,
Dövranların qanlar tökən neştərləri "Şüştər"də cəm.

Karvan, görən, hardan hara bac aparır, sarvan hanı,
Qurbanların ərşi tutan əlhəzəri "Şüştər"də cəm.

Baxma dönüb, yalvarıram, taleyi qarğanmış gözəl,
Baxdıqca sən məni boğan əcəl təri "Şüştər"də cəm.

Günlər uzun, yollar ağır, haçalanır hər döngədə,
Dərvişsifət aşiqlərin dərbədəri "Şüştər"də cəm.

Ey çalğıçı, kamançanı dəmsaz elə balabana,
Dildar deyə can verənin can səfəri "Şüştər"də cəm.

Ya eşq üçün, ya yurd üçün, ya haqq yolunda mərd üçün,
"Ya rəbb!" deyən fəryadların sərbəsəri "Şüştər"də cəm.

Yalnız qapılıb qüssəyə qəflətdə qalma, Akifa,
Sonda uzaqlardan gələn yar xəbəri "Şüştər"də cəm.

* * *

Demə, hardan bu qədər qəmlidi "Bayatı-Şiraz",
Nə vaxt dinsə, didəsi nəmlidi "Bayatı-Şiraz".

Təzə gəlin kimi tərk eyləyəli öz yuvasın,
Alışınca gözü şəbnəmlidi "Bayatı-Şiraz".

Gülüstan əhdinə küskün düşəndən indiyəcən
Fərağ atəşi ilə dəmlidi "Bayatı-Şiraz".

Bələd olmuş eşidənlər onun ah-əfğanına,
Fəğanda zilli, ahda bəmlidi "Bayatı-Şiraz".

Fəqət qəm-qüssəyə çökmüş binəva sanma onu,
Məhəbbət var isə, məhrəmlidi "Bayatı-Şiraz".

Özünün nəşvü-nüma bəxş eləyən sehri ilə
Gül açan arzuya həmdəmlidi "Bayatı-Şiraz".

Biçarə dərdə düçar kimsələrə söylə, Akif,
Bidəva dərdlərə məlhəmlidi "Bayatı-Şiraz".

* * *

Çal, ey tarzən, bu məhzun bir rəvayətdir "Humayun"dan,
Xəzan fəsli solan nakam məhəbbətdir "Humayun"dan.

Adında bəxt quşu, baxma ki, həmdəmdir uğurlarla,
Ahında payimal olmuş cəlalətdir "Humayun"dan.

Fəğanlar ki, tələşlarla çıxır bəmdən, düşür zildən,
Sel ağzından ümid izlər mətanətdir "Humayun"dan.

Boğazlardan ucaldıqca hüdud bilməz bidadlarda
Dönük çıxmış talelərdən şikayətdir "Humayun"dan.

Sınıq qəlblər naləsindən havalanan yanar xallar
Qan udduran zamanlara məzəmmətdir "Humayun"dan.

Aşiqindən qopan ahlar, məşuqundan yağan zarlar
Yaşanmış acı qismətə nədamətdir "Humayun"dan.

Eşit, Akif, bu ahənglər qubarını dağıtdıqca,
Səsin dərman təsirinə dəlalətdir "Humayun"dan.

* * *

Səddi yox, sahili yox bir dərin ümmandı muğamat,
Canlıya əksi-canan, cansıza bir candı muğamat.

Sarsıda bilməmiş əzmin neçə şəfqətsiz əsrlər,
Əbədiyyət yolunun üstdəki karvandı muğamat.

Gər könül içrə qəmin yoxsa, yaxın gəlmə, yanarsan,
Bağrı başdan-başa atəş dolu tüğyandı muğamat.

Kükrədikcə yenilik eşqinə hey bəmlə bərabər,
Zildə Alim kimi sərvərlərə meydandı muğamat.

Şayə var ki, işin atmış neçə şöhrətli təbiblər,
Əmin olcaq bidəva dərdlərə dərmandı muğamat.

Sığınar bağrına hər bəxti gülər, bəxti nalan da,
Cümlə vüslət ilə hicranlara ünvandı muğamat.

Gül ilə bülbülə sirdaşlığı adətdir əzəldən,
Akifa, fəxr elə ki, yurduna bir şandı muğamat!

*Məhəmməd Füzuliyə*

Qanımdakı bu hərarət, deyirdim, bədnəzərdəndir,
Ya sən tək - xəstəsin saymaz füsunkar bir qəmərdəndir,
Ya mən tək - odlu bir eşqin yolunda dərbədərdəndir.
Fəqət son anda duydum ki, dediklərim hədərdəndir,
"Nə səndəndir, nə məndəndir, nə çərxi-kinəvərdəndir,
Bu dərdi-sər xumari-nəşeyi-cami-qədərdəndir!"*

Məhəbbətin şərabından nuşi-canla içəndən sor,
İçib canan havasında canından vaz keçəndən sor,
Gözün yumub, o dörd qatdan həqiqəti seçəndən sor,
Gecə-gündüz ümidlərin vüsal üstdə biçəndən sor:
Nə gündəndir, nə dündəndir, nə özgə bir xətərdəndir,
"Bu dərdi-sər xumari-nəşeyi-cami-qədərdəndir!"

Onun nə olduğun bilsə, ona vurğun bilər ancaq,
Cəfadan ayrı düşdükcə qəmi əfzun bilər ancaq.
Bəlayi-eşq ağuşunda bihuş Məcnun bilər ancaq,
Darülcünun içindəki darülfünun bilər ancaq:
Nə göydəndir, nə yerdəndir, nə şəmaili-şərdəndir,
"Bu dərdi-sər xumari-nəşeyi-cami-qədərdəndir!"

Qənim kimi baxar hərdəm zahidliyi yaşadanlar,
Zəhərini baxışından qədəhimə boşadanlar,
Hər addımda ürəyimin Kəbəsinə daş atanlar,
"Yeqanlarım" acığına qoşalayıb "şeş" atanlar:
Nə şeşdəndir, nə beşdəndir, nə şeytanqulu zərdəndir,
"Bu dərdi-sər xumari-nəşeyi-cami-qədərdəndir!"

Füzuli, xəbərin yoxdur aşiqliyin dananlardan,
Akifi də qoşub sənə mütəsəvvif sananlardan,
İlahi eşq yuxusundan yarımçıq oyananlardan,
Hələ də "Leyli-Məcnun"lar yolunda dayananlardan:
Nə dindəndir, nə cindəndir, nə dəhri-əlhəzərdəndir,
"Bu dərdi-sər xumari-nəşeyi-cami-qədərdəndir!"

-----------------

**Beyt Füzulinin qəzəlindəndir.*